UOT: 338.012:330.33; JEL: Q13;Q18; M10; M21

Hüseyn Elçin oğlu DAŞPOLADOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı,
E-mail: huseyn.dashpoladov@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.003.032

KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA BİZNES FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASININ NƏZƏRİ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi kənd təsərrüfatının inkişafında biznes fəaliyyətinin səmərəliliyinin artırılmasının nəzəri aspektlərinin tədqiqindən ibarətdir.

Tədqiqatın metodologiyası formasında analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda, kənd təsərrüfatının inkişafı problemləri və bu sahədə biznes fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üzrə müxtəlif tədqiqatçıların elmi əsərlərinə istinadlar edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti kimi müasir dövrdə kənd təsərrüfatının inkişafının intensivləşdirilməsi və bu sahədə biznes subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə səmərəli mexanizmlərin hazırlanması əsas götürülür.

Tədqiqatın nəticələri olaraq məqalədə əsaslandırılmış təkliflərdən kənd təsərrüfatının inkişafının sürətləndirilməsi və bununla bağlı biznes subyektlərinin fəaliyyətinin gücləndirilməsi üzrə daha təsirli mexanizmlərin tətbiqi mümkündür.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından, qeyd edək ki, müasir transformasiyalar şəraitində kənd təsərrüfatının inkişaf problemlərinə və bu sahədə biznes fəaliyyətinin səmərəliliyinin artırılmasına konseptual baxışlar formalaşdırılmışdır. Digər tərəfdən, kənd təsərrüfatının inkişafında tətbiq olunan mövcud fəaliyyət mexanizmlərinin və biznes modellərinin təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır. Kənd təsərrüfatında biznes subyektlərinin fəaliyyətinin daha səmərəli təşkili üzrə təkliflər verilmişdir.

Açar sözlər: kənd təsərrüfatı, biznes fəaliyyəti, səmərəlilik problemləri, kənd təsərrüfatının inkişaf problemləri, kənd təsərrüfatında biznesin səmərəlilik problemləri, kənd təsərrüfatında biznesin səmərəliliyinin artırılmasının istiqamətləri.

Giriş

Qeyd edək ki, kənd təsərrüfatı istənilən ölkənin inkişafında strateji önəm daşıyan bir sahədir. Əhalinin ərzaqla təminatı, sənayenin xammala olan tələbatının ödənilməsi və regional balansın qorunması baxımından kənd təsərrüfatının rolu danılmazdır. XXI əsrdə bu sahənin inkişafı yalnız praktik tədbirlərlə deyil, habelə nəzəri yanaşmalarla təmin olunur. İEOÖ-lərdə bu sahə əhalinin məşğulluğunun və ÜDM-in əhəmiyyətli hissəsini təşkil edir. İEÖ-lərdə isə kənd təsərrüfatı daha çox yüksək texnologiyalar, məhsuldarlığın artırılması və ixrac potensialının gücləndirilməsi baxımından böyük önəm daşıyır. Kənd təsərrüfatı sektoru dünya iqtisadiyyatının ən mühüm sahələrindən biri olmaqla, demək olar ki, bütün ölkələrdə bu və ya digər formada təmsil olunur. Həmin sektoru bütün dünyanı qidalandıran sektor da adlandırmaq olar. Aydındır ki, müasir dövrün əsas problemi əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasıdır ki, bu, yalnız iqtisadi inkişaf baxımından deyil, habelə milli təhlükəsizlik nöqteyi-nəzərindən də strateji önəm daşıyır [3].

Bu qeyd olunan problemin həlli üçün kənd təsərrüfatının sürətli və davamlı inkişafı vacibdir. Hazırda dünya miqyasında əhalinin ərzaqla təmin olunması ən qlobal və aktual problemlərdən birinə çevrilmişdir. Kənd təsərrüfatının rolu özünü ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı, sosial sabitliyin qorunması, regional inkişafın təşviqi, ətraf mühitin mühafizəsi və torpaqdan səmərəli istifadə kimi sahələrdə də göstərir. Lakin bu sahənin davamlı inkişafı bir sıra struktur, iqtisadi və institusional problemlərlə qarşılaşır [1]. Habelə, kənd təsərrüfatı biznesinin səmərəliliyinin artırılması üçün nəzəri əsasların təkmilləşdirilməsi, müasir yanaşmaların tətbiqi və iqtisadi

modellərin inkişafı baxımından böyük önəm daşıyır.

Kənd təsərrüfatının inkişaf etdirilməsində biznesin rolunun artırılmasına nəzəri yanaşmalar

Kənd təsərrüfatının inkişafı bu sahədə islahatların reallaşdırılmasını zərurətə çevirir ki, bu zaman uğur əldə etmək məqsədilə həmin sahənin nəzəri əsaslarının dərindən və əhatəli şəkildə tədqiqi vacibdir. Belə bir tədqiqat gələcəkdə islahatların uğurlu icrasını təmin edəcək əsas prinsip və mexanizmlərin formalaşmasına şərait yaradır. Kənd təsərrüfatının inkişafının nəzəri əsaslarının öyrənilməsində ilk addım kimi bu sahədəki münasibətlərin mahiyyətini anlamaq böyük önəm daşıyır. Kənd təsərrüfatı münasibətləri bu sahənin strukturunu və funksionallığını müəyyənləşdirən əsas mexanizmdir. Onların düzgün təşkili kənd təsərrüfatının dayanıqlı inkişafını, kənd yerlərində həyat səviyyəsinin yüksəldilməsini və milli iqtisadiyyatın gücləndirilməsini təmin edir [5]. Kənd təsərrüfatı münasibətləri kənd təsərrüfatında təkrar istehsal proseslərində iştirak edən şəxslər arasındakı iqtisadi və sosial əlaqələri əhatə edir. Bu münasibətlər yalnız maddi sahədə deyil, habelə sənaye, sosial, mənəvi və mədəni münasibətlərin də ayrılmaz hissəsidir. Onlar əməkçi kəndlinin mülki hüquqlarına, universal insan dəyərlərinə və insanların təbii maraqlarına əsaslanır. Kənd təsərrüfatı münasibətləri sistemində əsas mövqe torpaq mülkiyyəti və ondan istifadə qaydalarına – daha konkret desək, torpaqla bağlı mülkiyyət münasibətlərinə məxsusdur.

Kənd təsərrüfatı sahəsindəki münasibətlər dar anlamda sadəcə əkinçiliklə əlaqələndirilir, geniş baxışda isə aqrar sənaye kompleksindəki bütün sahələrlə bağlı münasibətlər nəzərdə tutulur. Geniş mənada kənd təsərrüfatı münasibətləri həmin sektorda genişlənmiş təkrar istehsal prosesini və digər sahələrlə qarşılıqlı əlaqəni də əhatə edir. Bu münasibətlərin subyektləri sırasına müxtəlif mülkiyyət formalarında fəaliyyət göstərən kənd istehsalçıları, kənd təsərrüfatı infrastrukturunda çalışan işçilər, eləcə də kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və istehlakçılara çatdırılmasında iştirak edən şəxslər daxildir. Kənd təsərrüfatı müəssisələrinin spesifikası ondadır ki, onların böyüklüyü torpaq sahəsinin həcmi və ya heyvanların sayı ilə deyil, sahə üzrə məhsuldarlıq səviyyəsinə görə müəyyənləşdirilir. Kiçik torpaq sahəsinə malik, lakin yüksək məhsuldarlıqla işləyən təsərrüfatlar bəzən böyük təsərrüfatlarla müqayisə edilə bilər. Bu səbəbdən, torpaq ölçüsünə əsaslanaraq təsərrüfatların miqyasını yalnız təqribi qiymətləndirmək mümkündür. Əkinçilik kənd təsərrüfatının əsas komponentidir və bu sahənin digər istehsal sahələrindən əsas fərqi ondadır ki, torpaq burada başlıca istehsal vasitəsidir. Bu xüsusiyyət bir tərəfdən kənd təsərrüfatı texnologiyalarının spesifikasını müəyyənləşdirir, digər tərəfdən isə iqtisadi münasibətlərin formalaşmasına təbii zəmin yaradır. Müxtəlif ölkələrdə kənd təsərrüfatının səviyyəsi, torpaq məhsuldarlığı, mülkiyyət formaları və müəssisə strukturları arasında fərqliliklər mövcuddur.

Qeyd edək ki, kənd təsərrüfatının inkişafı ilə bağlı nəzəri baxışların araşdırılmasına başlanıldıqda merkantilizm nəzəriyyəsi ilk rast gəlinən nəzəriyyələrdəndir. Bu nəzəriyyənin əsas ideyası xarici ticarət məsələlərinə əsaslanır. Merkantilizmin tanınmış nümayəndələrindən biri olan T. Man qiymətli metalların ölkədən ixracına qoyulan qadağalara qarşı çıxış edərək bu istiqamətdə fərqli mövqe sərgiləmişdir. O, vurğulayırdı ki, hind məhsulları kimi xarici malların alınması üçün istifadə olunan qiymətli metallar ölkədən çıxsa da, son nəticədə böyük həcmdə ölkəyə geri dönür. Ümumilikdə, merkantilistlər ixracın idxaldan üstün olmasını iqtisadi rifahın əsas göstəricisi hesab etmişlər. Kənd təsərrüfatı sektorunun dövlətin iqtisadi siyasətində önəmli yer tutduğu dövr isə fiziokratizm nəzəriyyəsi ilə sıx bağlıdır. Fiziokratlar iqtisadiyyatın əsas dayağını torpağın təşkil etdiyini və sərvətin yeganə mənbəyinin də məhz torpaq olduğunu müdafiə edirdilər. Onlara görə, yalnız kənd təsərrüfatında dəyər yaranır və bu sahə məhsuldar fəaliyyət növü kimi çıxış edir. Torpaq kapitalının gəliri kimi faiz formalaşır və kapital yalnız kənd təsərrüfatına yönəldilməlidir. Fiziokratlar kənd təsərrüfatı istehsalçılarını yeganə məhsuldar sinif kimi qəbul edir və vergilərin də yalnız bu sahədən toplanmasının daha məqsədəuyğun olduğunu bildirirdilər [4, s.152].

Əlavə dəyərin yalnız kənd təsərrüfatı sahəsində meydana gəldiyini müdafiə edən fiziokratizm nəzəriyyəsinin başlıca nümayəndəsi F.Kene sayılır. Onun fikrincə, cəmiyyət üç əsas sinifə bölünür ki, bunlar istehsalçılar, mülkiyyətçilər və bəhrəsizlərdir. Kene fermerləri, fəhlələri və kapitalistləri

bir-birindən fərqləndirmir, onları ümumi şəkildə məhsuldar sinif kimi xarakterizə edirdi. O, təkrar istehsal konsepsiyasında istehsal olunan məhsulların bazarda satışı və realizasiyası məsələlərinə xüsusi önəm verirdi. Dəyərin müxtəlif siniflər arasında necə bölündüyünü izah edən “İqtisadi cədvəl” adlı tanınmış modeli ilə Kene iqtisadi təhlilin əsasını qoymuşdur. Bu cədvəldə vurğulanır ki, torpaq sahibləri məhsulların realizəsi üçün zəruri olan şəraiti təmin edirlər. Onun yanaşmasına əsasən, fermerlərdən alınan istehlak mallarını əsasən torpaq sahibləri əldə edir və bu mallar əsasən illik istifadə məqsədi daşıyır. Beləliklə, torpaq sahibləri bu alışla təkrar istehsal prosesindəki əsas funksiyalarını yerinə yetirmiş olurlar. Adam Smit və David Rikardo kimi klassik iqtisadçılar kənd təsərrüfatının iqtisadi artımda təməl rolunu vurğulamışlar. A.Smit fiziokratların ideyalarına əsaslanaraq belə bir nəticəyə gəlmişdir ki, sərvətin artırılması üçün sənaye deyil, məhz kənd təsərrüfatının inkişaf etdirilməsi daha məqsədəuyğundur. O, kənd təsərrüfatını milli sərvətin əsas mənbəyi kimi qiymətləndirmiş və bu sahədəki maddi və əmək resurslarından istifadə etməklə cəmiyyətin tərəqqisini və əhalinin rifahının yüksəlməsini əsas götürmüşdür. O, düşünürdü ki, kənd təsərrüfatı bir ölkənin iqtisadi inkişafı üçün baza rolunu oynayır, çünki ərzaq təminatı və ilkin xammal bu sahədən gəlir. A.Smitə görə, kapital kənd təsərrüfatı, sənaye və ticarət sahələrində müxtəlif yollarla istifadə olunur. O, kənd təsərrüfatına qoyulan kapitalın daha az gəlir gətirdiyini, amma uzunmüddətli və sabit gəlir mənbəyi olduğunu qeyd edirdi.

Klassiklərə görə, əmtəə istehsalının ixrac imkanlarını genişləndirmək istəyən ölkələr bu sahədə ixtisaslaşarkən torpaq rentasının formalaşmasında iştirak edən amillərə xüsusilə önəm verməlidirlər. A.Smit bu məsələyə dair özünəməxsus yanaşmaları ilə seçilir. Onun fikrincə, rentanın yaranmasında torpaq sahələrinin məhsuldarlığı ilə yanaşı, yerləşdiyi coğrafi mövqe əsas rol oynayır. A.Smitin “Xalqların sərvəti” adlı əsərində diferensial renta ilə bağlı fikirlər ətraflı şəkildə təqdim olunur. Bu əsərdə torpaq rentasının yalnız torpağın münbitliyinə görə deyil, habelə onun yerləşdiyi əraziyə görə də dəyişdiyi vurğulanır. Yəni, eyni münbitlik səviyyəsinə malik olan torpaqlar arasında, şəhərə yaxın ərazilərdə yerləşənlər uzaq bölgələrdəki torpaqlarla müqayisədə daha yüksək renta gətirir. Klassik iqtisadi məktəbin digər tanınmış nümayəndəsi D.Rikardo isə “Siyasi iqtisad və vergitutma prinsipləri” əsərində torpaq rentası məsələsini araşdırmış, onun mənbəyinin torpağın özü deyil, kənd təsərrüfatı məhsullarının istehsalında sərf olunan əməyə əsaslandığını sübuta yetirmişdir. Rikardonun kənd təsərrüfatına dair ən mühüm töhfəsi diferensial renta nəzəriyyəsidir. O göstərirdi ki, torpaqlar məhsuldarlığına görə fərqlənir. Ən məhsuldar torpaqlarda istehsal daha ucuz başa gəlir, buna görə daha çox gəlir gətirir. Əhali artdıqca və daha çox ərzaq lazım olduqca, aşağı məhsuldar torpaqlardan da istifadə edilməli olur, bu isə istehsal xərclərini artırır. Renta fərqli məhsuldarlığa malik torpaqlarda əldə edilən əlavə gəlirdir və yalnız məhsuldar torpaqlarda yaranır. Rikardonun “azalan məhsuldarlıq” nəzəriyyəsinə görə, torpağın məhsuldarlığı məhdud resurslara əsaslandığı üçün kənd təsərrüfatında məhsuldarlıq artımı uzunmüddətli perspektivdə çətinləşir.

Neoklassik nəzəriyyəyə əsasən, resursların səmərəli bölgüsü və bazar mexanizminin tətbiqi kənd təsərrüfatının inkişafını təmin edir. Neoklassik nəzəriyyənin əsasını qoyan J.B. Sey əmək-dəyər nəzəriyyəsini rədd etmiş və onun əvəzinə istehsalın üç əsas amili olan torpaq, əmək və kapitala əsaslanan bir konsepsiya irəli sürmüşdür. O, həmçinin məcmu tələb və məcmu təklifin tarazlıqda olduğunu iddia etmişdir. Neoklassik məktəbin inkişafına V.Cevons, K.Menqer, L.Valras, C. Klark, İ.Tyunen, F. Edcevort, İ.Fişer, V.Pareto, N.Uiksel və digər iqtisadçılar mühüm töhfələr vermişlər. Bu məktəbin tam formalaşması isə müxtəlif marjinalist yanaşmaları birləşdirən A. Marşallın nəzəri irsi ilə sıx bağlıdır. A. Marşall tələb və təklif arasındakı qarşılıqlı əlaqəni iqtisadi təhlilin əsas prinsipi kimi qiymətləndirmişdir [9, s.24]. Neoklassik iqtisadçılar kənd təsərrüfatının inkişafında sərbəst bazarın və qiymət mexanizminin rolunu vurğulayır. Onlara görə, səmərəli torpaq bölgüsü, texnologiyanın tətbiqi və resursların optimal istifadəsi kənd təsərrüfatında inkişafın əsas faktorları hesab olunur. Kənd təsərrüfatı istehsal funksiyaları və marjinal məhsuldarlıq bu yanaşmanın əsas analitik alətləridir. A.Marşall, kənd təsərrüfatının inkişafı baxımından məhsuldarlıq artımını və bazarların optimallaşmasını vurğulayır. O, torpaq, əmək, kapital kimi resursların optimal bölgüsünün kənd təsərrüfatının inkişafına təsirini tədqiq etmişdir.

Neoklasik nəzəriyyəçilərdən kənd təsərrüfatını daha çox tədqiq edən T.Maltus olmuşdur. T.Maltusun kənd təsərrüfatının inkişafına yanaşmaları əsasən onun əhali və iqtisadiyyat sahəsindəki nəzəriyyələri ilə bağlıdır. Maltusun yanaşması kənd təsərrüfatının inkişafında əsasən məhdud resurslar və əhali artımı arasındakı tarazlığı tapmaq üzərində qurulub. T.Maltus daha çox əhali artımı və ərzaq təminatı ilə bağlı fikirləri ilə məşhurdur. Onun fikrincə, əhali həmişə həndəsi silsilə ilə, lakin ərzaq təminatı ədədi silsilə ilə artır. Bu o deməkdir ki, kənd təsərrüfatı məhsulları artımı əhali artımını izləyə bilməz və zamanla ərzaq çatışmazlığı yaranacaq. Maltus kənd təsərrüfatının inkişafının əsas məhdudiyyətlərindən biri kimi torpaq ehtiyatlarının məhdudluğunu vurğulayırdı. Torpaq sahələri məhdud olduğundan, məhsuldarlığın artırılması kənd təsərrüfatının inkişafı baxımından vacibdir. Onun fikirləri kənd təsərrüfatının inkişafı üçün məhsuldarlığın və əhali artımının idarə olunmasının vacibliyini vurğulayır. Maltus kənd təsərrüfatının məhsuldarlığını artırmaq üçün texnologiya və əkinçilik metodlarının təkmilləşdirilməsini vacib hesab edirdi. Əhali artımı ilə bağlı Danimarkalı iqtisadçı Ester Boserup, Maltusun nəzəriyyəsinə əsaslanaraq fərqli bir yanaşma irəli sürmüşdü. O, 1966-cı ildə "Əhali" jurnalında çap olunan "Kənd təsərrüfatının artımı şərtləri. Əhali təzyiqi altında aqrar dəyişikliklərin iqtisadiyyatı" adlı məqaləsində belə bir fikir irəli sürür ki, əhali artımı kənd təsərrüfatının intensivləşməsinə, daha səmərəli və az əmək tələb edən istehsal üsullarının formalaşmasına təkan verir [11]. Bu baxımdan, kənd təsərrüfatı texnologiyalarının istiqamətini və formasını əhalinin sayı müəyyənləşdirir, lakin kənd təsərrüfatı üsulları əhalinin sayına təsir göstərmir [10, s.84].

Keynsin iqtisadi nəzəriyyəsinin ortaya çıxması ilə makroiqtisadi problemlərə çox diqqət yetirilməyə başlandı. O, kütləvi işsizlik, istehsal güclərinin tam istifadə edilməməsi və s. formasında artıq ehtiyatlar problemini göstərən reallığı qeyd etdi və tam məşğulluğa keçid məsələsini qaldırdı. "İstehsalın və məşğulluğun həcminə onların məcmuluğunda təsir edən qüvvələrin" müəyyənləşdirilməsi vəzifəsini qarşıya qoyan Keyns öz təhlilində milli gəlirin, əmanətlərin, investisiyaların, tələbin, təklifin, məşğulluğun məcmu dəyərlərinə əsaslanaraq öz baxışlarını irəli sürdü [8, s.79]. XX əsrin aparıcı iqtisadçılarından biri olan C.M.Keynsin nəzəriyyələri, xüsusilə dövlətin iqtisadiyyatda rolu barədə fikirləri kənd təsərrüfatı sektoruna da tətbiq oluna bilər. Keynsin ideyaları kənd təsərrüfatının struktur problemlərinin həlli və bazar uğursuzluqlarının aradan qaldırılması üçün ciddi nəzəri əsaslar verir. Keyns 1936-cı ildə nəşr etdirdiyi "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" əsərində dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyini müdafiə edirdi. O, sərbəst bazarın hər zaman tam məşğulluq və sabitlik təmin edə bilmədiyini iddia edərək, iqtisadi böhran və tənəzzül dövrlərində dövlətin fəal siyasət yeritməsini tövsiyə edirdi. Bu baxış kənd təsərrüfatı kimi qeyri-elastik və tez-tez qiymət dalğalanmalarına məruz qalan sahələr üçün xüsusilə aktualdır [7].

Keynsin nəzəriyyələrinə əsaslanaraq, kənd təsərrüfatının inkişafında dövlətin rolu müxtəlif istiqamətlərdə özünü büruzə verir. Məlumdur ki, kənd təsərrüfatı uzunmüddətli sərmayə tələb edən sahədir, lakin risklər və gəlirin qeyri-sabitliyi səbəbilə özəl sektor bəzən bu sahəyə kifayət qədər yatırım etmir. Keynsin ideyalarına əsasən, dövlət bu boşluğu doldurараq kənd təsərrüfatı infrastrukturuna və texnoloji yeniliklərə investisiyanı təmin etməlidir. Kənd təsərrüfatı məhsulları tez-tez bazar qiymətlərinin dəyişkənliyindən əziyyət çəkir və bu, fermerlərin gəlirlərində qeyri-sabitlik yaradır. Keynsin bazarın qeyri-kamilliyinə dair yanaşması subsidiya və qiymət tənzimləmələrinin vacibliyini əsaslandırır. Keynsin dövründə olduğu kimi, müasir dövrdə də ərzaq məhsullarının davamlı təchizatı milli təhlükəsizlik məsələsidir. Dövlət, bu sahədə strateji planlaşdırma apararaq kənd təsərrüfatı istehsalını stabilləşdirə bilər. Kənd təsərrüfatı həm də kənd ərazilərində məşğulluğun əsas mənbəyidir. Keynsin məşğulluq prinsipi burada da keçərlidir, yəni dövlət kənd yerlərində iş imkanlarını artırmaq üçün proqramlar reallaşdırmalıdır.

Keynsin baxışları müəyyən sahələrdə effektiv nəticələr verməsinə baxmayaraq, onların müasir kənd təsərrüfatında tətbiqi bəzi çətinliklərlə qarşılaşa bilər. Məsələn, dövlət müdaxiləsinin səmərəsizliyi resurs israfı kimi risk yaradır. Göründüyü kimi, C.Keynsin iqtisadi baxışları kənd təsərrüfatı sektorunun inkişafında hələ də aktualdır. Xüsusilə dövlətin stimullaşdırıcı rolu, bazar

uğursuzluqlarının aradan qaldırılması və sosial sabitliyin təmin olunması baxımından onun nəzəriyyələri bu sahəyə dəyərli töhfələr verir. Müasir şəraitdə bu ideyaların tətbiqi daha innovativ və şəffaf mexanizmlərlə müşayiət olunmalıdır. İnstitusional nəzəriyyələr də kənd təsərrüfatının inkişafını hüquqi, sosial və inzibati çərçivələrin formalaşması ilə əlaqələndirir. Bu yanaşma xüsusilə torpaq mülkiyyəti, kənd təsərrüfatı kooperativləri və kənd təsərrüfatı siyasətlərinin təsirini vurğulayır.

Müasir dövrdə kənd təsərrüfatının inkişaf problemlərinin həllində biznes fəaliyyətinin səmərəliliyinin artırılması məsələləri

Məlumdur ki, kənd təsərrüfatı iqtisadi inkişafın, ərzaq təhlükəsizliyinin və regional balansın qorunmasının əsas vasitələrindən biridir. İEÖ-lərdə bu sahənin müvəffəqiyyəti yalnız texnologiyanın deyil, habelə güclü institusional yanaşmaların mövcudluğu ilə təmin edilir. İnstitusional yanaşmalar dedikdə, hüquqi-normativ baza, idarəetmə strukturları, maliyyə institutları, kooperativlər və dövlət siyasətləri nəzərdə tutulur. İnstitusional iqtisadiyyat nəzəriyyəsinə əsasən, iqtisadi fəaliyyətin effektivliyi əsasən institutların – yəni qaydaların, normativlərin, təşkilatların – mövcudluğundan və səmərəliliyindən asılıdır. Kənd təsərrüfatında bu institutlara dövlət siyasətləri və tənzimləmə orqanları, kooperativlər və fermer birlikləri, kredit ittifaqları, aqrar banklar, elmi-tədqiqat və təlim mərkəzləri, torpaq idarəçiliyi və mülkiyyət hüquqları sistemi və digərləri aiddir. Bu institutlar kənd təsərrüfatı subyektlərinin resurslara çıxışını, bazara inteqrasiyasını və risklərin azaldılmasını təmin edir.

Dünyada kənd təsərrüfatının inkişafında institusional yanaşmanın uğurlu nümunələri mövcuddur. Məsələn, ABŞ-da güclü aqrar universitetlər şəbəkəsi, Hollandiyada kənd təsərrüfatında innovasiya və ixrac yönümlü istehsal üçün institutlaşmış tədqiqat mərkəzləri və güclü kənd təsərrüfatı kooperativləri, Çində torpaq istifadəsi hüquqları üzrə islahatlar və aqrar kredit sistemləri vasitəsilə kənd təsərrüfatının modernləşdirilməsi belə nümunələrdəndir. Azərbaycanda isə kənd təsərrüfatında institusional mexanizmlərin formalaşdırılması sahəsində bir sıra addımlar atılmışdır ki, bunlar aqrar subsidiya sistemi və elektron kənd təsərrüfatı informasiya sistemi, fermerlər üçün təlim mərkəzləri, aqrar sığorta fondu kimi maliyyə institutlarının yaradılması ilə bağlıdır. Bununla belə, kənd təsərrüfatının institusional inkişafı hələ də bir sıra problemlərlə üzləşir ki, bunlar hüquqi bazanın təkmilləşdirilməməsi, kooperativ hərəkatın zəif inkişafı, kənd yerlərində institusional koordinasiyanın olmaması və innovativ təlim imkanlarının məhdudluğu və digərləridir.

Kənd təsərrüfatı sahəsində uğurlu inkişaf üçün bir sıra amillər önəmli rol oynayır ki, bunlar torpaq ehtiyatları və onların düzgün idarə olunması, iqlim və təbii şərait, texnologiyaların tətbiqi və innovasiyalar, kapital qoyuluşları və maliyyə dəstəyi, kadr potensialı və kənd yerlərində təhsil səviyyəsi, infrastrukturun inkişaf səviyyəsi, dövlət siyasəti və subsidiyalardır. Bu amillərin sinxron fəaliyyəti kənd təsərrüfatında yüksək məhsuldarlığın və rentabelliyin təmin edilməsinə şərait yaradır. Qeyd olunan amillər kənd təsərrüfatını inkişaf etdirməklə həmin sahədə biznes fəaliyyətinə təkan verir. Kənd təsərrüfatında biznes fəaliyyəti – kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması və bazara çıxarılması proseslərini əhatə edən iqtisadi və idarəetmə fəaliyyətidir [6, s. 138].

Müasir dövrdə kənd təsərrüfatında biznes fəaliyyəti ölkəmizdə və bütövlükdə dünyada sürətlə inkişaf edən sahələrdən biri hesab olunur. Kənd təsərrüfatı sahəsində biznes fəaliyyəti, istehsalçının yaradıcılıq qabiliyyəti, innovativ yanaşmaları tətbiq etməsi, gəlirliliyin təmin olunması və risklərin idarə olunması kimi əsas faktorlar üzərində qurulur. Bu sahədə biznes və sahibkarlıq münasibətlərinin genişlənməsi, aqrar iqtisadi münasibətlərin daha səmərəli şəkildə təşkilinə önəmli töhfə verir. Kənd yerlərində çoxşaxəli iqtisadiyyatın inkişafı üçün biznes subyektlərinin yaradılması və onların dəstəklənməsi, daxili ərzaq bazarında yerli məhsulların payının artırılmasında əsas rol oynayır. Buna görə kənd təsərrüfatında biznesin inkişafını stimullaşdırmaqla onun səmərəliliyinin yüksəldilməsi strateji önəm daşıyan prioritetlərdən biri sayılır [2, s.64]. Bu fəaliyyət özündə investisiya qoyuluşlarını, risklərin idarə olunmasını, məhsuldarlığın artırılmasını və resurslardan səmərəli istifadəni birləşdirir. Aydındır ki, səmərəlilik iqtisadiyyatın əsas kateqoriyalarından biri-

dir və resursların optimal bölüşdürülməsi, minimum xərclə maksimum nəticə əldə olunması kimi izah olunur. Kənd təsərrüfatında səmərəli biznes fəaliyyəti məhsuldarlığın, gəlirliliyin və rəqabət üstünlüyünün artırılmasına səbəb olur. Səmərəliliyin əsas göstəriciləri kimi, kapitalın gəlirliliyini, məhsuldarlıq göstəricilərini, resurslardan istifadə effektivliyini misal göstərə bilərik.

Kənd təsərrüfatında biznes fəaliyyətinin səmərəliliyini əhatəli şəkildə araşdırmaq məqsədilə istehsal prosesinin müxtəlif tərəflərini əks etdirən dəqiq və sistemli göstəricilər toplusuna ehtiyac duyulur. Bu istiqamətdə əsas məqsəd istehsalda istifadə olunan müxtəlif amillərin səmərəliliyini əks etdirən kəmiyyət göstəricilərinə əsaslanaraq ümumiləşdirilmiş bir səmərəlilik göstəricisinin formalaşdırılmasıdır. Kənd təsərrüfatında biznes fəaliyyətinin səmərəliliyinə texniki avadanlıqlar, rəqəmsal kənd təsərrüfatı, süni intellekt əsaslı idarəetmə sistemləri, kiçik təsərrüfatların birləşməsi və ortaq resurslardan istifadəsi, dövlət dəstəyi və subsidiya siyasəti, istehlak tələbinə uyğun məhsul istehsalı və logistika imkanları, təhsilli kadrların olması və aqrar sahədə peşəkar idarəetmə kimi amillər önəmli təsir göstərir.

Kənd təsərrüfatı sahəsi bazar qanunları ilə yanaşı, dövlətin müdaxiləsi ilə tənzimlənməli olan bir sahədir. Dövlətin bu sahədə rolu subsidiya və güzəştli kreditlər, vergi güzəştləri, kənd təsərrüfatı məhsullarının ixrac və idxal siyasəti, aqrar sığorta və risklərin idarə olunması, kənd infrastrukturlarının inkişafı və s. istiqamətlərdə müşahidə edilir. Dövlətin strateji proqramları kənd təsərrüfatının uzunmüddətli inkişafına təkan verə bilər. Müasir dövrdə kənd təsərrüfatının inkişafında rəqəmsal texnologiyaların tətbiqi yeni imkanlar yaradır. Aqrar sahədə informasiya texnologiyaları, "ağıllı kənd təsərrüfatı" texnologiyaları, peyk müşahidələri, dronlar və GPS əsaslı idarəetmə sistemləri məhsuldarlığın artırılmasına, xərclərin azalmasına və təbii resurslardan daha effektiv istifadəyə imkan verir.

Nəticə

Beləliklə, kənd təsərrüfatının inkişafı təkcə iqtisadi deyil, habelə, sosial və ekoloji aspektləri özündə birləşdirən kompleks bir prosesdir. Bu sahənin nəzəri əsaslarının dərindən öyrənilməsi və təcrübədə düzgün tətbiqi həmin sektorun inkişafını təmin edə bilər:

✓ Kənd təsərrüfatı sahəsinin inkişafı və biznes fəaliyyətinin səmərəliliyinin artırılması üçün kompleks yanaşma tələb olunur. Bu sahənin məhsuldarlığının və rəqabətqabiliyyətinin artırılması üçün biznes fəaliyyəti düzgün təşkil olunmalı və iqtisadi baxımdan səmərəli olmalıdır.

✓ Biznes fəaliyyətinin səmərəliliyi kənd təsərrüfatının inkişafı üçün əsas şərtdir. Tez-tez dəyişən bazar şəraiti, iqlim riskləri və texnoloji yeniliklər fonunda fermer və sahibkarların səmərəli idarəetmə bacarıqları, innovativ yanaşmaları və dövlətin dəstəyi bu sahədə uğuru təmin edən əsas amillərdir.

✓ Qlobal miqyasda kənd təsərrüfatının inkişafı üçün yalnız texniki təkmilləşmə deyil, habelə idarəetmə və iqtisadi fəaliyyətin səmərəliliyi böyük önəm daşıyır.

✓ Struktur islahatları, dövlət dəstəyi, rəqəmsallaşma və beynəlxalq təcrübənin tətbiqi bu sahənin potensialını daha geniş şəkildə reallaşdırmağa imkan verir.

✓ Gələcəkdə kənd təsərrüfatının dayanıqlı və rəqabətqabiliyyətli olması üçün elmi yanaşmalar, texnoloji yeniliklər və dövlət dəstəyi qarşılıqlı şəkildə fəaliyyət göstərməlidir və s.

ƏDƏBİYYAT

1. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri / B.X.Ataşov. – Bakı: Kooperasiya, – 2017. – 536 s.
2. Əsgərov, R.Ə. Aqrar sahədə sahibkarlıq və biznes fəaliyyətinin spesifik xüsusiyyətləri. Kənd təsərrüfatının iqtisadiyyatı, – 2022. № 1 (39), – s.63-70.
3. Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. / E.A.Quliyev – Bakı: Kooperasiya, – 2018. – 479 s.
4. Meybullayev, M.X. İqtisadi təlimlər tarixi. Bakı, 2002. – 470 s.
5. Алиев Ш. Т. Экономика Азербайджана. Сумгайыт, 2018 – 376 с.

6. Алиев Ш.Т. Проблемы конкурентоспособности реального сектора экономики Азербайджана в условиях глобализации// Журнал «Доклады» НАНА. – 2008. – № 6. – С. 135–143.
7. Кейнс, Дж.М. Общая теория занятости процента и денег [Электронный ресурс]. – Режим доступа: [Электронный ресурс] 28.11.2020 URL: https://rbook.me/book/3842433/read/page/65/.
8. Рыжкова, А.П. Теория Дж. М. Кейнса и целесообразность ее использования / А.П. Рыжкова // International & Domestic Law: Материалы XV Ежегодной всероссийской конференции по национальному и международному праву, Площадка Google Meet, 18 декабря 2020 года. – Екатеринбург: Учебно-научная лаборатория "Sapientia", 2020. – с. 79-82.
9. Специфика методологии в классическом и неоклассическом направлениях экономической теории / С.А. Жиронкин, М.А. Гасанов, Э.А. Гасанов, Т.Г. Красота // Вестник Хабаровского государственного университета экономики и права. – 2023. № 1(111),– с. 21-25.
10. Тураева, Д.О. Роль теории Мальтуса в изучении социально-экономических проблем роста народонаселения / Д.О. Тураева, М.Н. Миронова // Инновационная экономика. – 2021. № 4(29), – с. 80-90.
11. Boserup, E. The Conditions of Agricultural Growth: The economics of agrarian change under population pressure. 1965. London: George Allen and Unwin.

Гусейн Эльчин оглы Дашполадов
докторант Азербайджанского Университета Кооперации,
E-mail: huseyn.dashpoladov@gmail.com

Теоретические аспекты повышения эффективности хозяйственной деятельности в сфере развития сельского хозяйства

Резюме

Цель исследования – является изучение теоретических аспектов повышения эффективности хозяйственной деятельности по развитию сельского хозяйства.

Методология исследования – включала в себя методы анализа, синтеза, сравнительного анализа и обобщения в форме формулировки. При этом были сделаны ссылки на научные труды различных исследователей по проблемам развития сельского хозяйства и повышения эффективности хозяйственной деятельности в этой сфере.

Практическое значение исследования – заключается в разработке эффективных механизмов интенсификации развития сельского хозяйства в современных условиях и совершенствования деятельности субъектов хозяйствования в этой сфере.

Результаты исследования - на основе обоснованных в статье предложений возможно применение более эффективных механизмов ускорения развития сельского хозяйства и усиления деятельности субъектов предпринимательства в этом направлении.

С точки зрения оригинальности и научной новизны исследования – следует отметить, что сформированы концептуальные взгляды на проблемы развития сельского хозяйства и повышения эффективности деятельности предприятий в этой сфере в условиях современных преобразований. С другой стороны, обоснована важность совершенствования существующих механизмов действия и бизнес-моделей, применяемых в развитии сельского хозяйства. Внесены предложения по более эффективной организации деятельности субъектов предпринимательства в сельском хозяйстве.

Ключевые слова: сельское хозяйство, деловая активность, проблемы эффективности, проблемы развития сельского хозяйства, проблемы эффективности бизнеса в сельском хозяйстве, направления повышения эффективности бизнеса в сельском хозяйстве.

Huseyn Elchin Dashpoladov
doctoral student at Azerbaijan Cooperation University,
E-mail: huseyn.dashpoladov@gmail.com

Theoretical aspects of increasing the efficiency of business activities in agricultural development

Summary

The purpose of the study is to investigate the theoretical aspects of increasing the efficiency of business activities in the development of agriculture.

The research methodology used methods of analysis, synthesis, comparative analysis and generalization in the form of a form. At the same time, references were made to the scientific works of various researchers on the problems of agricultural development and improving the efficiency of business activities in this field

The applied significance of the research is based on the development of effective mechanisms for intensifying the development of agriculture in the modern era and improving the activities of business entities in this field.

The results of the research – based on the proposals substantiated in the article, it is possible to apply more effective mechanisms to accelerate the development of agriculture and strengthen the activities of business entities in this regard.

In terms of the originality and scientific novelty of the research, it should be noted that conceptual views on the problems of agricultural development and increasing the efficiency of business activities in this area in the conditions of modern transformations have been formed. On the other hand, the importance of improving the existing mechanisms of action and business models applied in the development of agriculture has been substantiated. Proposals have been made for a more efficient organization of the activities of business entities in agriculture

Key words: agriculture, business activity, efficiency problems, agricultural development problems, business efficiency problems in agriculture, directions for increasing business efficiency in agriculture.